QANUN № 08 (382), 2026, s.3-11

Zeynalova Təranə Kamil qızı,
Bakı Dövlət Universitetinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının dosenti, h.ü.f.d.
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: tkzeynalova@gmail.com

UOT 340.12
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.103

İNTİBAH DÖVRÜNDƏ QƏRBİ AVROPADA DÖVLƏT SUVERENLİYİ NƏZƏRİYYƏSİNİN TƏŞƏKKÜLÜ VƏ İNKIŞAFI

Açar sözlər: *suverenlik konsepsiyası, dövlət hakimiyyəti, suverenin səhayiyyətləri, idarəetmə formaları, qanunvericilik, müstəqillik.*

Ключевые слова: *концепция суверенитета, государственная власть, полномочия суверена, формы правления, законодательство, независимость.*

Keywords: *concept of sovereignty, state power, powers of the sovereign, forms of management, legislation, independence.*

"Suverenlik" anlayışı (fr. *souveraineté* — ali hakimiyyət) hüquq elmində mühüm siyasi-hüquqi kateqoriya olmaqla, cəmiyyətin dövlət hakimiyyətinin mühüm xüsusiyyətlərini özündə cəmləşdirir. Bu anlayış siyasi-hüquqi ədəbiyyatda üç səpkidə işlədilir: dövlət suverenliyi, xalq suverenliyi və milli suverenlik. Bu ifadələr müəyyən dərəcədə muxtar məna yükünə malik olsalar da, tarixi-genetik və sosial-siyasi baxımdan eyni kökə malikdirlər. Çünki burada əsas məqam müəyyən sosial orqanizm çərçəvəsində hakimiyyətin aliliyi, müstəqilliyidir.

Dövlət suverenliyi dövlət hakimiyyətinin elə xassəsidir ki, bu zaman hər hansı başqa hakimiyyətə münasibətdə ölkə daxilində, habelə ümumi qəbul edilmiş beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş normalarına riayət etməklə dövlətlərarası münasibətlər sahəsində həmin dövlətin aliliyi və müstəqilliyində ifadə olunur. Dövlət hakimiyyətinin müstəqilliyi və aliliyi öz ifadəsini konkret olaraq universallıqda (yalnız dövlət hakimiyyətinin qərarları həmin ölkənin bütün əhalisinə və ictimai təşkilatlarina aid edilir); üstünlükdə və heç bir digər ictimai təşkilatın malik olmadığı xüsusi təsir vasitələrinin olmasında tapır.

Dövlət suverenliyi haqqında ideyalar Qərbi Avropada XVI əsrdə feodalizmin dağılması və burjua milli dövlətlərin formalaşması dövründə, müxtəlif siyasi qüvvələr və təşkilatlar arasında kəskin mübarizə şəraitində siyasi praktikanın nəticəsi kimi meydana cıxmışdı. Bu nəzəriyyə Avropada mütləq monarxiyanın formalaşdığı dövrdə yaranmışdı. Avropada iri milli dövlətlərin yaranması onların mərkəzləşdirilməsi ilə nəticələndi. Bir tərəfdən burjua münasibətlərinin inkişafı, digər tərəfdən də dini və dünyəvi hakimiyyət arasında ziddiyyətlərin dərinləşməsi yaranan dini və siyasi xaosu aradan qaldırmağa qadir olan "güclü" dövlət ideyasını aktuallaşdırmışdı. Bu dövrün mütəfəkkirlərinin əsərlərində suverenliyin dövlətin əsas elementlərindən biri olan dövlət hakimiyyəti ilə eyniləşdirilməsi özünün təsdiqini tapmışdır.

İntibah dövrünün mütəfəkkirləri içərisində dövlət suverenliyi nəzəriyyəsinin hazırlanmasında elmi birincilik fransız mütəfəkkiri və hüquqşünası Jan Bodenə (1530-1596) məxsusdur.

Daha doğrusu, “suverenlik” anlayışı ilk dəfə elmi dövriyyəyə J.Boden tərəfindən “Respublika haqqında altı kitab” (1576) əsərində daxil edilmiş və bununla da mütəfəkkir sonrakı əsrlərin siyasi-hüquqi ideologiyası üçün bu anlayışın əsasını qoymuşdu. Fikrimizcə, bunu təsadüf hesab etmək düzgün olmaz. Belə ki, suverenlik haqqında təlim konkret tarixi şəraitlə bağlı yaranmış, Fransada milli dövlətin müstəqilliyi və onun digər siyasi qüvvələr (məsələn, kilsə, iri mülkədarlar və şəhərlər) üzərində üstünlüyü uğrunda aparılan mübarizənin ifadəsi idi. Məhz bu dövrdə mərkəzləşdirilmiş dövlət hakimiyyətinin suverenliyi doktrinasını dövlətin daxilində və xaricində özünün müstəqilliyini və aliliyini əsaslandırmanın ideoloji vasitəsi kimi inkişaf etdirməyə imkan verən ilkin praktiki və nəzəri şərtlər yaranmışdı. J.Boden bu təliminin köməyi ilə Yeni dövrün təcrübəsinə və nəzəriyyəsinə uyğun olan dövlət və ya “respublika” konsepsiyasını özünün müstəqil gücünə malik olan siyasi ünsiyyət kimi əsaslandırmışdı. O, suverenliyi bütövlükdə dövlətlə əlaqələndirmişdi. Onun güclü dövlət konsepsiyası “suverenlik” anlayışı ətrafında mərkəzləşmiş kateqoriyalar, baxışlar və yanaşmalar sistemi idi.

Qeyd edilməlidir ki, J.Boden əsərlərində dövlət institutuna xüsusi diqqət ayırmışdır. “Siyasi elmdə dövlət nəzəriyyəsini aydın şəkildə təqdim edən birincilərdən” hesab edilən mütəfəkkir [10, s.155] bu məsələnin izahında öz sələflərindən, xüsusən də Aristotel, Polibi, Siseron, həmçinin müasirləri olan N.Makiavelli, T.Mor və digərlərindən fərqli mülahizələr irəli sürmüşdü. Mütəfəkkir “dövlət” anlayışını izah etmək üçün latın termini “res publika” və onun fransızca analoqu “une Republique” ifadələrini işlətmişdi. Tarixə və idraka istinad edərək mütəfəkkir dövlətin ailələrdən tədricən, yaxud xalq kütlələrinin bir anda toplanılmasından və ya da başqa bir dövlətdən irəli gələn müstəmləkəçilikdən yaranması qənaətinə gəlmişdi. J.Boden sadalananlar arasında dövlətin əsas elementi qısmində ailəyə üstünlük verərək ailə daxilində üç hakimiyyət növünü ayırırdı: valideyn, ər və ağa. Onun nəzəriyyəsinə görə ailə başçısının hakimiyyətinin zəifləməsi dövlətin deqradasiyasına səbəb olur.

J.Boden yazırdı: “Hansı səbəbdən yaranmasından asılı olmayaraq dövlətlər insanların bütün azadlıqlarını könüllü olaraq digər insanın tabeçiliyinə tam şəkildə vermək razılığı nəticəsində qurulur ki, o da suveren hakimiyyətə arxalanaraq digər insanlar üzərində sərəncam verə bilsin” [1, s.144-145].

Beləliklə də, J.Boden dövləti “ailələr və suveren hakimiyyətlə ortaq olanlar vasitəsilə hüquqi şəkildə idarəetmə” kimi nəzərdən keçirmişdi. Mütəfəkkir hüquqi yolla idarəetməni dövləti quldurlar dəstəsindən fərqləndirməyə imkan verən əsas cəhət hesab etmişdi. O, suveren hakimiyyəti dövlətin mühüm əlaməti hesab edərək, bu məsələ ilə bağlı öz mülahizələrini geniş şəkildə əsaslandırmışdı. Məlumdur ki, suverenlik kateqoriyası özünün terminoloji başlanğıcını qədim Roma anlayışı olan “imperium” dan (magistratların ali və müstəsna hakimiyyəti) götürmüşdür. Həmin anlayış sonralar “gladii potestas” (qılınc gücü) konsepsiyasına çevrilmişdir. G.İ.Bayazitovanın mövqeyinə görə, J.Boden bu anlayışı suverenin təbəələrinin yaşamaq və zərurət yarandıqda, yaxud cəzalandırma halında ölüm hüququ kimi şərh etmiş və onun şərtlərini ciddi şəkildə müəyyənləşdirmişdi. Konseptual olaraq suverenlik anlayışı mülki, hərbi, məhkəmə və qanunvericilik funksiyalarını birləşdirməklə, “imperium”un xarakteristikasını faktiki olaraq öz əlamətlərində təkrarlayır. G.İ.Bayazitova bu mövzu ilə bağlı araşdırmasında yazır:

“J.Bodenin suverenlik konsepsiyası özünün ilahi xarakteri ilə “imperium” anlayışından əsaslı şəkildə fərqlənir. Digər Roma anlayışı olan “potestas” (güc, hakimiyyət) suverenliyin oxşar anlayışının inkişafında mühüm rol oynamışdı və sonradan həmin anlayış da kilsə hüququ tərəfindən inkişaf etdirilərək Roma Papalarının “plenitudo potestatis” (mütləq hakimiyyət) konsepsiyasına çevrilmişdi. Suveren hökmranın daimi və mütləq hakimiyyəti qanundan üstün və ilahi təbiətə əsaslanmaqla, apostol taxtının

hakimiyyəti kimi tamhakimiyyətliliyə çevrilmişdi. Bununla yanaşı, qeyd edilməlidir ki, J.Boden sənədlərə istinad edərək Fransa kralının, apriori suveren hökmdarın Papanın hakimiyyətinə tabeçiliyini inkar edirdi. "Plenitudo potestatis" nəzəriyyəsi avtomatik olaraq siyasi sferaya, Tanrı ilə hökmdar arasındakı münasibətə tranformasiya olundu ki, bu da J.Bodenin konsepsiyasında öz əksini tapdı» [2, s.17].

B.D.Levinin mövqeyinə görə, J.Boden suverenliyi vətəndaşlar və təbəələr üzərində qanundan yüksək və azad ("summa in cives et subditos legibusque soluta potestas") hakimiyyət kimi müəyyən edir. Öz növbəsində bu hakimiyyət nə qanunlarla, nə zamanla məhdudlaşdırıla bilməyən, bölünməz, dəyişməz və konkret müddətə tabe olmayan bir güc kimi xarakterizə edilir. Belə hakimiyyət istənilən dövlətin zəruri əsası və atributudur [8, s.19].

Bu problemin araşdırılması ilə məşğul olan alimlərin arqumentlərinin təhlilini yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, J.Boden «Respublika haqqında altı kitab» traktatında suverenliyin klassik və geniş istinad edilən tərifini vermiş (suverenlik monarxın dövlət üzərində mütləq və dəyişməz hakimiyyətidir - T.Z.),onu müəyyən bir dövlətin ərazisində dövlət hakimiyyətinin müstəqilliyi və siyasi üstünlüyü kimi müəyyən etmişdi. Suverenliyin əlamətlərini və məzmununu ortaya qoyan mütəfəkkir yazırdı: "Suverenlik - dövlətin mütləq və daimi hakimiyyətidir... suverenlik vətəndaşlar və təəbələr üzərində ali və qanunlardan azad mütləq bir hakimiyyətdir".

J.Bodenə görə suveren hakimiyyət, ilk növbədə, yalnız subyektə qeyri-müəyyən müddətə verilən səlahiyyət, yəni daim hakimiyyətdir. O, hesab edirdi ki, bu hakimiyyət heç bir şərtiliklərlə məhdudlaşdırıla bilməz, bu hakimiyyətin daşıyıcısı isə onu sahibkar kimi başqasına verə bilər. Mütəfəkkirin fikrincə, dövlətin suveren hakimiyyəti həm ölkə daxilində, həm də başqa dövlətlərlə münasibətdə ali və müstəqil hakimiyyətdir, ali siyasi hakimiyyətin sahibidir. Onun təliminə görə suverenlik dövlətin kilsədən, müxtəlif siniflərdən və başqa dövlətlərdən müstəqilliyi deməkdir.

Daha sonra, ali hakimiyyət mütləq olmalıdır. Burada mütəfəkkir hakimiyyətin mütləq mahiyyətini onun daşıyıcısının ondan qeydşərtsiz istifadə edə və sərəncam verə bilməsi, bu səlahiyyəti başqa bir şəxsə ötürə bilməsi kimi nəzərdən keçirir: «Xalq və ya hökmdarlar suveren və əbədi hakimiyyəti heç bir şərt olmadan istənilən bir şəxsə verə bilər" [1, s.145].

Onu da qeyd etmək lazımdır ki, J.Bodenin konsepsiyasına görə, suverenliyin əsasını monarxın qanunlar qəbul etmək üzrə müstəsna hüququ təşkil edirdi; suveren insan və vətəndaş hüququndan üstün mövqedə dayansa da, tanrının qanunlarına və təbiət qanunlarına tabe idi, yəni yalnız ilahi qanunlar və təbii qanunlar suveren hakimiyyətin daşıyıcısından daha yüksəkdə durur. Mütəfəkkirin mövqeyinə görə özünü fəaliyyətində suveren Tanrının qanunları, təbii qanunları dəyişə bilməz, daha doğrusu suverenlik ilahi və təbii qanunlarla tənzimlənən münasibətlər sahəsinə şamil edilmir: şəxsi azadlıq, dini etiqad, şəxsi mülkiyyət və ailə. Bəzən mənbələrdə J.Bodenin belə yanaşmasını əsas götürən müəlliflərin onun təbii hüquq haqqında ideyalarının teoloji yönümlü olması haqqında fikirlərinə də rast gəlmək olur [12, s.157].

J.Bodenə görə suveren hakimiyyət vahid, yəni bölünməyən hakimiyyətdir. Mütəfəkkirin fikrincə, hakimiyyət "bərabər" bölünə bilməz, onu üç hissəyə bölmək olmaz, suverenlik eyni zamanda monarxa, aristokratiyaya və xalqa məxsus ola bilməz, o, yalnız bir subyektə, şəxsə və ya bir orqana məxsusdur, əks halda bu «dövlətin ölümü» ilə nəticələnə bilər. Suveren ümumməcburi əmrlər vermək hüququna malik olandır. Buna əsaslanaraq mütəfəkkir özünün sələflərindən, məsələn, Polibi, Siseron, N.Makiavellidən fərqli olaraq, qarışıq tipli dövlət formasını rədd edir. Bu arada qeyd edilməlidir ki, ümumiyyətlə, intibah dövrünün mütəfəkkirləri arasında suverenliyin daşıyıcısı problemi müəyyən fikir ayrılığına, mübahisələrə səbəb olmuş, bəzən müxtəlif, bir-birini tamamilə inkar edən konsepsiyalar irəli sürülmüşdür.

J.Boden dövlətin suveren hakimiyyətinin səlahiyyətlərini yalnız ona məxsus olan müstəsna hüquqlar vasitəsilə təyin etmişdir. Belə ki, mütəfəkkir "Respublika haqqında altı kitab" əsərində suverenliyin əsas beş əlamətini səciyyələndirir: 1)qanunlar yaratmaq və ləğv etmək. O, hesab edirdi ki, bu, prinsipcə ali hakimiyyətin bütün digər üstünlüklərinin daxil olduğu ən vacib səlahiyyətdir. Digər tərəfdən isə, J.Bodenə görə qanunları qəbul etmək monarxın müstəsna hüququ olsa da, o, tanrının və təbiətin qanunlarına tabe olmalı idi; 2)ali hakim olmaq; 3)magistrları - vəzifəli şəxsləri təyin etmək; 4)müharibə elan etmək və sülh bağlamaq; 5)məhkumları əfv etmək. O, həmçinin pul kəsilməsi, ölçü və çəkilərin təyin edilməsi,vergilərin təyin olunmasını da suveren hakimiyyətin səlahiyyətlərinə şamil edirdi.

J.Boden "Respublika haqqında altı kitab" əsərinin ikinci kitabında idarəetmə formaları probleminə toxunmuşdu. Suveren hakimiyyətin kimin əlində cəmlənməsindən asılı olaraq, mütəfəkkir üç idarəetmə formasını fərqləndirirdi: monarxiya, demokratiya, aristokratiya.

Dövlət idarəetməsi formalarını müxtəlif faktorlarla şərtləndirilən J.Boden monarxiyanı ən yaxşı dövlət forması hesab edir və onu mütləq suverenliyin bir suverenə məxsus olduğu respublika tipi adlandırırdı. Mütəfəkkirə görə monarxiya birbaşa hakimiyyətin təbiətinə, onun vahidliyinə və bölünməzliyinə uyğundur - monarxiyada suveren hakimiyyət həmişə bir adama məxsus olur. Burada ali hakimiyyət (suverenlik) tamamilə monarxa məxsusdur. Bir idarəetmə forması kimi monarxiyanın müəyyənedici xüsusiyyəti ondan ibarətdir ki, burada təbəələr suverenin qanunlarına, suverenin özü isə təbii və ilahi qanunlarına tabe olur, suveren təbəələrinin təbii azadlığını və mülkiyyətini qoruyur. Bu yanaşmadan çıxış edərək J.Boden monarxiyanı siyasi və dini böhranı aradan qaldırmağa qadir olan dövlət forması hesab edirdi. Sözsüz ki, mütəfəkkir tərəfindən güclü monarx hakimiyyətinin əsaslandırılması, monarxiyanın ən yaxşı dövlət forması kimi dəyərləndirilməsi XVI əsrdə Fransada yaranmış siyasi vəziyyətə əsaslanırdı. Digər tərəfdən, J.Bodenin mövqeyinə görə, monarx öz təbəələrinin əmlakına öz şəxsi malı kimi baxmağa və vətəndaşlara qul münasibəti bəsləməklə təbii qanunları pozmağa başladığı halda monarxiya tiraniyaya çevrilə bilər və belə halda mütəfəkkir xalqın onu öldürmək hüququ olduğunu qəbul edir. Əksinə, taxta varislik qanununa əsasən hakimiyyətə gəlmiş hökmdara özünü tiran kimi aparmaq hüququ verən qanunu tanımır və belə halda yalnız ilahi məhkəməyə ümid edirdi.

J.Boden seçkili və mütləq monarxiyanı birbirindən fərqləndirərkən üstünlüyü mütləq monarxiyaya verirdi. Onun fikrincə, suverenliyin tamamilə monarxa məxsus, ölkənin idarəetməsinin isə (vəzifələrə təyinat qaydası) mürəkkəb olduğu kral monarxiyasında aristokratiya prinsipləri (başlıca olaraq məhkəmədə və orduda bir sıra vəzifələrə kral yalnız əsilzadələri təyin edir) demokratik prinsiplərlə (bir sıra vəzifələrin hamıya əlçatan olması) uzlaşır.

Mütləqiyyətə haqq qazandırmaqla yanaşı, J.Boden aristokratiya və demokratiyaya da özünün mövqeyini bildirmişdi. Mütəfəkkir aristokratiyanı suveren hakimiyyətin və siyasi cəmiyyətin təbiətinə adekvat olan forma kimi qiymətləndirərkən və bu idarə formasında hakimiyyətin bütün xalqa deyil, öz fəziləti, biliyi və nəcibliyi ilə seçilən ləyaqətli azlığa məxsus olmasını dəyərləndirirdi. Beləliklə də, mütəfəkkir öz konsepsiyalarında antidemokratik və mahiyyətcə antirespublikaçı mövqe tutmaqla demokratik dövlətdə siyasi hakimiyyətin və ümumi sərvətin bütün xalqa məxsus olmasını ədalətsiz hesab edirdi. O, xalqı "ağlını itirmiş izdiham", kütlə adlandıraraq, siyasi məsələlərin həllini ona etibar etməyi "ağılsız adamdan məsləhət almağa bərabər" hesab etmişdir [7, s.340].

Qeyd olunanları yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, suverenliyin araşdırılmasında Renessans dövrünün mütəfəkkiri J.Bodenin xidməti onu dövlətin əlaməti, ali hakimiyyətin əsas xüsusiyyəti kimi öyrənilməsindən, eləcə də

müxtəlif idarəetmə formalarında suverenliyin xüsusiyyətlərinin nəzərə alınmasından ibarət olmuşdu. Mütəfəkkir müxtəlif dövlət formalarını nəzərdən kecirərkən onların hər birinin mümkünlüyünü və gücünü müxtəlif ölkələrin və xalqların tarixi və təbii xüsusiyyətləri ilə əlaqələndirirdi. J.Bodenin güclü monarxiya hakimiyyətini əsaslandırması o dövrdə zadəganlarla yanaşı, Qərbi Avropa mütləqiyyətinin sosial bazasını təşkil edən burjuaziyanın maraqlarına cavab verirdi.

Suverenlik nəzəriyyəsi öz inkişafını təbii hüquq məktəbinin ilk görkəmli nəzəriyyəçisi Holland alimi, hüquqşünas, dövlət xadimi, filosof Hüqo Qrotsinin (1583-1645) əsərlərində davam etmişdi. O, "Müharibə və sülh qanunu haqqında" əsərində elmə suverenliyin "ümumi subyekti" (dövlət) və suverenliyin bilavasitə daşıyıcısı kimi başa düşülən «məxsusi subyekti" anlayışlarını fərqləndirməklə daxil etmişdi. Mütəfəkkir burada suverenlik terminina uyğun olan "ali hakimiyyət" kateqoriyasına toxunaraq, suverenliyi fəaliyyəti heç kimin nəzarətinə tabe olmayan bir güc, hakimiyyətin daşıyıcısından başqa heç kimin mülahizəsinə görə məhdudlaşdırıla bilməyən ali hakimiyyət kimi nəzərdən keçirirdi : « Ali hakimiyyət elə bir hakimiyyət kimi müəyyən edilir ki, onun hərəkətləri heç bir digər hakimiyyətə tabe deyil və başqa bir hakimiyyət tərəfindən öz mülahizəsinə əsasən ləğv edilə bilməz» [6, s.71].

H.Qrotsinin təlimində dövlət vahid bütöv kimi "ali hakimiyyətin ümumi daşıyıcısı" kimi çıxış edirdi. O, hesab edirdi ki, ali hakimiyyətin ümumi daşıyıcısı dövlətin özüdür, lakin "məxsusi mənada hakimiyyətin daşıyıcısı" isə "müəyyən bir xalqın qanunlarına və adət-ənənələrinə uyğun olaraq ya bir şəxs, ya da bir neçə şəxs ola bilər» [6, s.72]

Ali hakimiyyətin daşıyıcıları dövləti yalnız beynəlxalq əlaqələrdə deyil, həm də öz xalqı ilə münasibətdə də təmsil edirlər. Mütəfəkkirin mövqeyinə görə, "dövlət hakimiyyəti ali hakimiyyətdir, çünki onun hərəkətləri başqasının hüququna tabe deyil, yəni heç bir insan iradəsi ilə aradan qaldırıla bilməz". H.Qrotsi hesab edirdi ki, ali hakimiyyətin hüquqları dövlət üçün faydalı olan ümumi qaydaların qəbuluna və ayrı-ayrı hərəkətlərin edilməsinə şamil olunur [11, s.61].

J.Bodenin ardınca, H.Qrotsi də qanunların nəşrini (dini və dünyəvi), ədalət mühakiməsinin həyata keçirilməsini, vəzifəli şəxslərin təyin edilməsini, vergilərin yığılmasını, müharibə və sülh məsələlərinin həll edilməsini ali hakimiyyətin əsas əlamətləri hesab etmişdi. Mütəfəkkir hesab edirdi ki, mahiyyət etibarilə ali hakimiyyət vahid və bölünməz olsa da, o, bir neçə orqan (qanunvericilik hakimiyyəti, hökumətin hakimiyyəti, məhkəmə hakimiyyəti) arasında bölüşdürülür. Bununla belə, bu bölgü, H.Qrotsiyə görə, ali hakimiyyətin mahiyyətini azaltmır, ali hakimiyyət məcmu etibarilə onların hamısına məxsusdur.

A.L.Bredixin və E.A.Pereverzevin mövqelərinə görə H.Qrotsi «ali hakimiyyətin konkret və ümumi daşıyıcılarını fərqləndirən bir təlim işləyib hazırlamışdı. Mütəfəkkir mütləq xalq suverenliyi ideyasını qəbul etmirdi, çünki dövlət müqavilə əsasında yaransa da, xalq özünü monarxın hakimiyyətinə tabe edə bilərdi [3, s.90].

Beləliklə də, suverenliyi daha çox dövlət hakimiyyətinin xüsusi cəhəti kimi nəzərdən keçirən H.Qrotsi özünün təlimini əsasən respublika üsul-idarəsinə deyil, o zamanlar burjuaziyanın müəyyən təbəqələrinin özləri üçün məqbul hesab etdiyi monarxiya qaydalarına tətbiqən işləyib hazırlamışdı. J.Bodenin ardinca o da, xalqın müqavimət göstərmək hüququnu rədd edirdi, çünki dövlət əvvəldən ictimai sülhü qorumaq üçün qurulmuşdu. Bu səbəbdən də hakimiyyət orqanlarına, hətta öz səlahiyyətlərindən sui-istifadə edənlərə müqavimət göstərmək üçün universal hüquq olmamalıdır.

İngilis filosofu, mütəfəkkiri, təbii hüquq və ictimai müqavilə nəzəriyyələrinin banisi Tomas Hobbs (1588-1679) suverenliyin əhəmiyyətini onun ərazi üzərində hakimiyyət mərkəzi kimi anlamı çərçivəsindən xeyli kənara çıxarmaqla onun mənasını daha da genişləndirmişdi. O, 1651-ci ildə nəşr edilmiş "Leviafan, və ya kilsə və mül-

ki dövlətin materiyası, forma və hakimiyyəti" adlı əsərində suverenliyi hökmdarın vətəndaş cəmiyyətinə öz iradəsini yeritməklə bağlı onun mütləq səlahiyyəti kimi izah edirdi. Bu zaman T.Hobbs adətlə məhdudlaşdırılan orta əsrlərin suveren modelindən uzaqlaşır: "Suverenin hansısa hissəsi üzrə razılaşmanın pozulması mümkün deyildir... Suveren olan kəs özünün təbəələri ilə əvvəlcədən danışaraq razılığa gələ bilməz".

Dövləti insan arzu və ehtiraslarının toqquşması nəticəsində formalaşan böyük mexanizm kimi təsəvvür edən T.Hobbsun mövqeyinə görə, dövlət hər hansı subyektiv və obyektiv məhdudiyyətlərdən azaddır, heç kim onu mühakimə edə bilməz. Yalnız o, bütün insanların tabe olmağa borclu olduğu mütləq ali və müstəqil gücə malikdir. Dövlətin yaranması ilə təbii hüquqlardan (yəni, özünümüdafiə üçün hər şey etmək sərbəstliyi) imtina etməklə insanlar bunu dövlət üzərinə keçirirlər. Mütəfəkkir bütün insanları ədalətsizliklərdən, xarici istilalardan qoruyan, onların təhlükəsizliyini təmin edən cəmiyyətin qurulmasının yeganə yolunu bütün hakimiyyət və gücü bir şəxsdə və ya səs çoxluğu ilə vətəndaşların iradələrini vahid iradədə birləşdirə bilən xalq yığıncağında cəmləşdirməkdə görürdü. Onun fikrincə, ümumi hakimiyyəti qurmaq üçün xalqın bir şəxsi və ya xalq yığıncağını öz nümayəndəsi təyin etməsi lazımdır. T.Hobbs bunu "hər bir insanın bir-biri ilə bağladığı razılaşma yolu ilə bir şəxsdə təcəssüm olunan həqiqi birlik" adlandırır [1, s.338].

T.Hobbs bu yolla coxsaylı insanların bir şəxs ətrafında birləşməsini dövlət (lat. *civitas*) adlandırmışdı. Mütəfəkkirə görə dövlət xalqın qarşılıqlı müqaviləsi əsasında yaranmış, hər kəsin öz iradəsinin və mühakiməsinin seçdiyi şəxsin iradəsinə və mühakiməsinə tabe etdiyi elə bir vahid qurumdur ki, bu şəxs onların hamısının gücü və vasitələrindən istifadə etməklə ümumi sülh və təhlükəsizliyi qorumalıdır. Dövlət vahid bir şəxsdir. Bu vəzifənin daşıyıcısı suveren adlanmaqla ali hakimiyyətə malikdir və hər kəs onun tabeliyindədir. T.Hobbsa görə, dövlət hakimiyyəti onu məhdudlaşdıran hər hansı müdaxilədən azaddır.

Mütəfəkkir hesab edirdi ki, "ali hakimiyyət nə mülki qanunlarla, nə də vətəndaşlardan hər hansi biri ilə bağlı olmayanlara həvalə olunmalıdır". T.Hobbs dövlətin idarə edilməsində "kəskin əl" prinsipinin tərəfdarı və ölçülüb-biçilmiş idarəetmə formasının əleyhdarı olsa da, o, feodalizm mərhələsindəki monarxiyanın deyil, artıq burjuaziya monarxiyasının ideoloqu idi. Onun əsas ideyası və qayəsini belə demək mümkünsə, monarxiya prinsipindən daha çox idarəetmə formasından asılı olaraq, dövlət hakimiyyətinin qeyri-məhdudluğu təşkil edirdi. Mütəfəkkir mütləq və qeyri-məhdud hakimiyyəti yalnız fərdin davranışına deyil, həm də onun dini, etik və siyasi baxışlarına şamil edirdi [9].

T.Hobbsa görə dövlətin hər bir ali orqanı (monarx, nümayəndələr məclisi, hətta xalq yığıncağı) suveren ola bilər. Lakin o, kralın məhdudiyyətsiz hakimiyyətini qanun-qaydanın təminatı hesab edirdi. Mütəfəkkir üçün suverenin hakimiyyəti mütləqdir: qanunların verilməsi, onların yerinə yetirilməsinə nəzarət, vergilər qoyulması, məmur və hakimlərin təyin edilməsi hüququ ona məxsusdur; hətta təbəələrin fikirləri də suverenə tabedir: hansı dinin və ya sektanın həqiqi, hansının isə həqiqi olmadığını dövlətin hökmdarı müəyyən edir.

T.Hobbsun dövlət hakimiyyətinin mütləqliyi haqqında ideyaları, hər şeydən əvvəl, siyasi hüquq sahəsinə aid idi. T.Hobbsa görə, sülh və təhlükəsiliyin təmin edilməsi siyasi münasibətlər sahəsində təbəələr üzərinə yalnız mükəlləfiyyətlər qoyur, suverenə isə yalnız hüquqlar verir.

Suverenlik haqqında konsepsiyalara İntibah dövrünün mütəfəkkiri holland filosofu Barux Spinozanın (1632-1677) əsərlərində də rast gəlmək olur. Mütəfəkkirin suverenlik haqqında ideyaları T.Hobbsun güclü təsiri altında və onunla polemikalarda formalaşmışdır. B.Spinozanın mövqeyinə görə dövləti vətəndaş cəmiyyətindən fərqləndirən xüsusiyyət məhz ali hakimiyyətin

olmasıdır. Yəni, vətəndaşlıq vəziyyətinin fərqli əlaməti ali hakimiyyətin mövcudluğudur ki, onun məcmu halındakı "bədəni" B.Spinozaya görə, dövlət sayılır. Mütəfəkkirin yanaşmasında ali hakimiyyət (həmçinin ali qanun, çünki qanun güc, səlahiyyətdir) mahiyyət etibarilə dövlətin suverenliyi kimi başa düşülür. B.Spinoza görə, ali hakimiyyət özü heç bir qanunla bağlı olmasa da, hamı hər şeydə ona tabe olmalıdır, hər kəs "ən böyük absurdu yerinə yetirməyi əmr etsə belə, ali hakimiyyətin bütün əmrlərini qeyd-şərtsiz yerinə yetirməyə borcludur". B.Spinozanın fikrincə, ali hakimiyyət "heç bir qanunla bağlı deyildir, lakin hamı hər bir məsələdə ona tabe olmalıdırlar; hər kəs "ali hakimiyyətin hətta cəfəngiyyat və mənasız ola biləcək bütün əmrlərini şərtsiz yerinə yetirməyə borcludurlar". O, xarici siyasət fəaliyyətində dövlətlərin müstəqilliyini suverenliyin mühüm aspekti hesab edirdi.

B.Spinoza suverenliyə qeyd-şərtsiz mütləq, bölünməz, heç bir qanunla bağlı olmayan, müstəsna olaraq ötürülən dövlət hakimiyyəti kimi baxırdı. T.Hobbs kimi, onun üçün də suverenlik prinsipi məntiqi olaraq təbii qanundan irəli gəlir və ictimai müqavilə vasitəsilə öz əsasını onda tapırdı.

Qeyd edilməlidir ki, artıq XVII əsrdə J.Bodenin suverenlik nəzəriyyəsinin həyata keçirilməsi nəticəsində hökmdarların özlərinin səlahiyyətlərinin məhdudlaşdırılması problemi yarandı. Bu məqsədlə ingilis filosofu və mütəfəkkiri C.Lokk (1632-1704) hakimiyyətin özbaşınalığını qanunla məhdudlaşdırmaq üçün hüququn suverenliyi konsepsiyasını irəli sürdü. Bu nəzəriyyəyə görə hökmdarlar özləri də qanuna tabe olmalı idilər.

C.Lokka görə, bir halda ki, dövlət təbii hüquq (azadlıq, bərabərlik, mülkiyyət) və qanunlara (sülh və təhlükəsizlik) təminat vermək üçün yaranmışdır, buna görə də o, həmin hüquqlara toxunmamalıdır, elə qurulmalıdır ki, təbii hüquqlar etibarlı şəkildə qorunsun. Təbii hüquq və qanunlar üçün əsas təhlükə imtiyazlardan, əsasən hakimiyyət səlahiyyətləri olanların imtiyazlarından qaynaqlanır. Mütəfəkkir üçün əsas o idi ki, hakimiyyətin özü hüquq və azadlıqları özbaşınalıq və qanunsuzluqdan etibarlı şəkildə qoruya bilsin. C. Lokk yazırdı ki, dövlət hakimiyyəti özbaşına despotik fərmanlarla əmr vermək hüququnu öz üzərinə götürə bilməz. Əksinə, dövlət hakimiyyəti elan edilmiş daimi qanunlar və səlahiyyətli hakimlər vasitəsilə ədalət mühakiməsini həyata keçirməyə və subyektin hüququnu müəyyən etməyə borcludur. Hakimiyyət heç bir şəxsi onun razılığı olmadan əmlakının bir hissəsindən məhrum edə bilməz.

Kollektivçiliyin bütün digər formalarından (ailə, ağa mülkləri, təsərrüfat birlikləri) dövlət yalnız siyasi hakimiyyəti, yəni ictimai rifah naminə qanunlar yaratmaq hüququnu təcəssüm etdirməsi ilə fərqlənir. C.Lokka görə, dövlət publiki (siyasi) hakimiyyəti təcəssüm etdirən və funksiyasını yerinə yetirən sosial institutdur. C.Lokkun nəzəri müddəalarında dövlət suverenliyindən daha əhəmiyyətli hesab edilən xalq suverenliyi ideyası işlənib hazırlanmışdır. C.Lokk hakimiyyətin də qanunlara tabe olması mövqeyini müdafiə edirdi və xalqın hüquqları pozulduqda hakimiyyətə müqavimət göstərməsini qanuni hesab edirdi [4, s.75].

Göründüyü kimi, siyasi-hüquqi fikir tarixində dövlət suverenliyi haqqında ideyaların təşəkkül tapdığı ilk dövrlərdə həm ümumi mövqelər, həm də bir-birindən mühüm dərəcədə fərqlənən yanaşmalar müşahidə edilirdi. Buna baxmayaraq, mütəfəkkirlərin təlimlərində suverenlik ilk növbədə hər bir dövlətin öz maraqlarına uyğun müstəqil daxili və xarici siyasət yürütmək hüququ kimi anlaşılmış, dövlətin elementlərindən biri ilə - dövlət hakimiyyəti, xalq və ya ali hakimiyyət orqanları ilə eyniləşdirilmiş, onun yüksək əhəmiyyəti mütəfəkkirlərin hamısı tərəfindən praktiki olaraq birbaşa və ya dolayı yolla etiraf olunmuşdur.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Антология мировой философии. В 4-х. т. Т.2. Европейская философия от эпохи Возрождения по эпоху Просвещения / Редкол.: В.В. Соколов и др. М.: Мысль, 1970, 776с.

2. Баязитова Г.И. Политико-правовые воззрения Жана Бодена / Автореф. дис... канд. истор. наук. Тюмень 2006, 24с.

3. Бредихин А.Л., Переверзев Е.А.Возникновение и развитие идеи государственного суверенитета // Вестник Белгородского юридического института МВД России, 2009, № 1, с.90-92.

4. Гадисов С.Р. Генезис теорий суверенитета в западной науке: историко-правовой аспект // Вестник Поволжского института управления 2023. Том 23. № 4, с. 71-79.

5. Галушко В.Д. О суверенитете государства в международном праве //Вестник ВГУ. Серия Право, 2013, № 1, с.366-373.

6. Гроций Г. О праве войны и мира Книга первая . http://www.civisbook.ru/files/File/Groziy.Kn1.pdf

7. История политических и правовых учений. Средние века и Возрождение. М.: Наука, 1986, 353с.

8. Левин И.В. Суверенитет. СПб.: Изд-во «Юридический центр Пресс», 2003, 373с.

9. Милованов К.Ю. Томас Гоббс - Аристотель Нового Времени).[Электронный ресурс] - Режим доступа: https://vestniknews.ru/prilozhenie/intervyu-i-stati/2453--sp-11505.html

10. Речкович С.А. История развития идеи о суверенитете //Theories and Problems of Political Studies. 2016, Vol. 5, Issue 5A, с. 150-161.

11. Фролова Е.А. Философия права в новое время: Гуго Гроций // Право и государство: теория и практика. М., 2019, № 5(173), с. 58-62.

12. Хабиров Р.Ф. Становление представлений о государственном суверенитете в западноевропейской политико-правовой мысли // Правовое государство: теория и практика, 2016, № 2(44), с.155-163.

Зейналова Тарана Камиль гызы,
доцент кафедры теории и истории государства и права
Бакинского государственного университета,
доктор философия по праву

ВОЗНИКНОВЕНИЕ И РАЗВИТИЕ ТЕОРИИ ГОСУДАРСТВЕННОГО СУВЕРЕНИТЕТА В ЗАПАДНОЙ ЕВРОПЕ В ЭПОХУ ВОЗРОЖДЕНИЯ

РЕЗЮМЕ

В статье подробно рассматриваются основные положения концепций теории суверенитета выдающихся мыслителей эпохи Возрождения, таких как Ж.Боден, Г. Гроций, Т. Гоббс, Дж. Локк и др. Отмечается, что в учениях мыслителей, занимающих как общие, так и различные позиции относительно этой политико-правовой категории, суверенитет рассматривался, прежде всего, как право каждого государства проводить самостоятельную внутреннюю и внешнюю политику в соответствии со своими интересами.

В трудах названных мыслителей суверенитет отождествляется с государственной властью, которая является одним из основных элементов государства, подчеркивается ее принадлежность народу и прямо признается высокая значимость суверенитета.

Zeynalova Tarana Kamil,
PhD in Law, Associate Professor,
Department of Theory and
History of State and Law,
Baku State University

THE FORMATION AND DEVELOPMENT OF THE THEORY OF STATE SOVEREIGNTY IN WESTERN EUROPE DURING THE RENAISSANCE

SUMMARY

The article provides a comprehensive analysis of the fundamental principles underlying the concepts of state sovereignty, as developed by prominent Renaissance thinkers such as J. Bodin, H. Grotius, T. Hobbes, J. Locke, and others. It is noted that, despite certain similarities and differences in their approaches to this political and legal category, sovereignty was regarded in their doctrines, first and foremost, as the right of every state to pursue an independent national and foreign policy in accordance with its own interests. Simultaneously, in the works of the aforementioned thinkers, sovereignty was identified with state power, a fundamental element of the state. It was also emphasized that sovereignty belongs to the people, and the paramount importance of sovereignty was explicitly acknowledged.

Redaksiyaya daxilolma tarixi: 11.08. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 16.08. 2026
Çapa qəbul olunma tarixi: 23.08.2026